**E-audit təlimziləri üçün treninq**

Vergilər nazirinin müşaviri Asəf Əsədov treninq iştirakçılarının nəzərinə çatdırmışdır ki, «E-audit» Tvinninq layihəsi günün tələblərindən irəli gəlir. E-audit ölkəmizdə şəffaflığın artırılmasına, vergitutma bazasının genişləndirilməsinə səbəb olacaq, yoxlama proseslərində vaxt itkisinin qarşısını alacaq. Ölkədə e-auditin tətbiqi üçün savadlı mütəxəssislərin yetişdirilməsi vacib əhəmiyyət daşıyır və beynəlxalq aləmdə bu sahədə istifadə edilən ən yeni sistemlər Azərbaycanın Vergilər Nazirliyində də tətbiq ediləcək.

Treninq zamanı iştirakçılara e-auditin məqsədi, tətbiqi sahəsi, auditin aparılma forması, üsulları, horizontal monitorinq, daxili nəzarət sisteminin təşkili və əhəmiyyətini əks etdirən slaydlar nümayiş etdirilmişdir.

Treninqin növbəti günü nağd əməliyyatlar zamanı rəsmiləşdirilməyən satışların aşkar edilməsi, kassa aparatlarında təftiş aparma metodu, yayınma risklərinin müəyyən edilməsi praktiki misallarla iştirakçılara izah olunmuşdur.

Treninqin aparılmasında iştirak etmiş Niderland Krallığının təmsilçisi, e-audit üzrə əlaqələndirici, EDP audit mütəxəssisi Bob van Stinvijk öz təəssüratlarını belə ifadə etmişdir: «Niderland Krallığı e-audit sahəsində çoxillik təcrübəyə malikdir: orada e-audit 1988-ci ildən tətbiq edilir. Əlbəttə, gənc dövlət olan Azərbaycanla Niderlandı bu sahədə müqayisə etmək məntiqsiz olardı. Lakin müəyyən zaman keçdikdən sonra Azərbaycan da e-auditin inkişaf etdiyi dövlətlərdən birinə çevriləcək. Azərbaycanda elektron audit layihəsinin təqdimatından ötən bir il ərzində mərhələli şəkildə müəyyən işlər həyata keçirilmişdir. E-audit layihəsinin uğurla həyata keçirilməsi üçün müvafiq bilik və bacarıqlara malik kadr potensialının, zəruri qanunvericilik bazasının, təlim və təhsilin rolu xüsusilə önəmlidir. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ilk təlimçilər seçilib və biz bu sahədə biliklərimizi Azərbaycanın gənc auditorları ilə bölüşürük. Müsbət haldır ki, Azərbaycan tərəfi növbəti mərhələlərdə təlimçilərin sayının artırılmasını nəzərdə tutur. Bu cür addımlar, o cümlədən Vergilər Nazirliyi tərəfindən vergi xidmətlərinin elektronlaşdırılması istiqamətində həyata keçirilən ardıcıl işlər nəticəsində ölkədə e-auditin tez bir zamanda tətbiqi mümkün olacaq».

Treninqin başqa bir aparıcısı, Niderland Krallığının təmsilçisi, orta və böyük təşkilatlar üzrə EDP auditoru Cor Sonnemans da Azərbaycanda həyata keçirilən e-audit layihəsi barədə müsbət rəydədir: «Gündən-günə sürətlə elektronlaşan dünyada e-audit zamanın tələbidir. Dünyanın əksər ölkələrində mühasibat artıq elektron vasitələrlə aparılır. Xüsusən, korrupsiyaya qarşı mübarizədə və bütün fəaliyyət sahələrində şəffaflığın təmin edilməsində, maliyyə və vergi yayınmalarına qarşı mübarizədə elektron auditin rolu əvəzsizdir. Azərbaycanda elektron auditin tətbiqi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə başlansa da, hələ də həllini gözləyən müəyyən məsələlər var. İlk növbədə, ölkədə səmərəli və effektiv mühasibat mövcud olmalıdır: bu, ölkədə yüksək səviyyəli elektron auditin tətbiqinə təkan verəcək. Auditin elektron formada həyata keçirilməsi Azərbaycana bir sıra üstünlüklər gətirəcək. Belə ki, elektron audit, ilk növbədə, səmərəliliyi artıracaq. E-auditin tətbiqi vergi ödəyiciləri haqqında məlumatları daha dərindən və təfsilatı ilə təhlil etməyə, auditorlara isə ödəyicilər haqqında daha düzgün rəy verməyə əminlik yaradacaq. Bütövlükdə e-auditin aparılması Azərbaycanda auditin keyfiyyətinə müsbət təsir göstərəcək».

Arzu İBRAHİMOVA